## BMT-nin Ətraf Mühit Proqramı

Birləşmiş Millətlər Ətraf Mühit Proqramı (UNEP-The United Nations Environment Programme)-üzv dövlətlərin ətraf mühitlə bağlı fəaliyyətini koordinasiya edir, inkişaf etmiş ölkələrin ətraf mühit siyasətlərinin və təcrübələrinin implementasiyasını həyata keçirir. Bu təşkilat 1972-ci ilin iyununda "Birləşmiş Millətlərin İnsan Mühiti” konfransından sonra yaradılıb. Baş qərargahı Keniyanın paytaxtı Nairobi şəhərindədir. Həmçinin YUNEP-in 6 müxtəlif regional və ayrı-ayrı ölkələrdə ofisləri mövcuddur.